UOT 94 (479.24)
https://doi.org/10.59849/2710-0820.2024.2.104

**Vüqar Səmədov**
*Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin*
*Heydər Əliyev adına Hərbi İnstitutunun*
*Elmi-tədqiqat şöbəsinin rəisi*
*Azərbaycan*
*tural-ashina@rambler.ru*

# İMPERATOR I İRAKLİNİN QAFQAZA İKİNCİ YÜRÜŞÜ

***Açar sözlər:*** *Azərbaycan, Albaniya, Bizans, Sasanilər, Avar xaqanlığı*

602-ci ildə Bizans imperatoru Mavriki (582-602) ailə üzvləri ilə birgə qəsbkar Foka (602-610) tərəfindən öldürülmüşdür. 590-cı ildə imperatorun köməyi ilə taxta qayıdan və buna görə ona bəzi torpaqları verən şahənşah II Xosrov Pərviz (591-628) bu hadisədən istifadə edib, həmin əraziləri geri qaytarmaq qərarına gəldi. Artıq 604-cü ildə o, Mavrikinin qisasını almaq bəhanəsi ilə Bizansla müharibəyə başladı və 610-cu ildə Konstantinopola yaxınlaşdı. Baxmayaraq ki, həmin il Bizansda çevriliş baş verdi və yeni imperator I İrakli (610-641) II Xosrovu sülhə dəvət etdi, sonuncu onun təşəbbüsünü rədd etdi. Sonrakı illərdə iranlılar Suriya, Kappadokiya, Fələstin, Misir, Qalatiya, Paflaqoniya, Rodos və başqa əraziləri ələ keçirdilər [3, s.134-136].

Bu hadisələrdən sonra imperator I İrakli orduda islahatlar apardı və 622-ci ildə iranlıların üzərinə hücum etdi. Elə həmin il bizanslılar Kappadokiyaya daxil oldular, növbəti ildə isə Sasanilərin Persarmeniya vilayətinə, sonra isə Atropatenaya hücum etdilər. Bundan sonra I İrakli Albaniyaya doğru hərəkət etdi və Bərdəni zəbt edib orada qışladı. 624-cü ildə Albaniya və Persarmeniya ərazisində müharibəni davam edən imperator düşməni məğlub etsə də, Van gölü istiqamətində geri çəkilməyə məcbur oldu. 625-ci ildə I İrakli Kiçik Asiyada müharibə apardı, sonra isə Ponta gedib orada qışladı [3, s.136-141].

Sasanilərlə Bizans arasındakı mübarizə 626-cı ildə xüsusi şiddətlə davam etdi. I İraklini Ponta sıxışdıraraq onun tərk etdiyi bölgələrdə hakimiyyətini bərpa etdikdən sonra sərkərdə Şəhrivarazın rəhbərliyi altında olan ordu 626-cı ilin yazında yenidən hücuma keçdi və həmin ilin yayında avarlar ilə ittifaqda Konstantinopolu mühasirəyə aldı. Şəhrivarazın ordusu Xalkidondan irəliləyirdi, I İrakliyə qarşı isə müharibəni Şahin aparmalı idi. Lakin geniş şəkildə düşünülmüş planın uğuru olmadı. 626-cı il avqustun 7-də Avar xanı müttəfiqlərin köməyini gözləmədən şəhərə hücuma başladı və məğlub olduğundan mühasirəni dayandırıb geri çəkilməli oldu. Məğlubiyyətdən xəbər tutan Şəhrivaraz 626-cı il avqustun 10-da Xalkidonu tərk edərək qoşunları ilə Suriyaya getdi. Həmin il I İraklinin qardaşı Feodor isə Şahini məğlub etdi [9, s.185; 15, s.197; 19, s.83-84; 20, c.3, s.73, 74-82; 21, s.234-236; 26, s.146; 27, s.356-357; 28, s.62-63; 31, s.432-433].

Bu hadisələr zamanı imperator I İrakli Sasani dövlətinə qarşı ikinci yürüşü təşkil etməklə məşğul idi. Birinci yürüşün təcrübəsi göstərdi ki, II Xosrovla mübarizədə Cənubi Qafqaz və Kiçik Asiya xristianlarının ciddi köməyinə arxalanmaq olmaz idi, çünki onlar Sasanilərin hakimiyyəti altında özlərini Bizans dövründəkindən yaxşı olmasa da, heç bir halda pis hiss etmirdilər. Albanlar və ermənilər I İraklinin gözlədiyi kimi, nəinki Sasanilərə qarşı üsyan etmədilər, hətta onun özünə ciddi müqavimət göstərdilər. Feofan xəbər verdiyi kimi, yeni bir ordu qurduqdan sonra imperator Lazikaya getdi [5, s.144; 19, s.84; 20, c.3, s.73-74; 26, s.146].

İkinci yürüşünə başlamazdan əvvəl I İrakli yeni müttəfiqlər axtardı və onları xəzərlərin simasında tapdı. Moisey Kaqankatlanın dediyinə görə, II Xosrov Pərvizin padşahlığının 36-cı ilində (yəni 625-ci ildə) I İrakli "öz əyanlarından olan Andre adlı istedadlı və dərrakəli-

sini hazırlayıb xəzərlərin yanına göndərdi və onun vasitəsilə onlara saysız-hesabsız sərvətlər vəd etdi... Bu sözləri eşidən Şimal carının xələfi, çarlığın Cebu Xaqan adlı ikinci adamı" isə cavab olaraq dedi: "Mən onun düşmənlərindən onun əvəzinə intiqam alacağam. Mən özüm şəxsən qalxıb tezliklə onun köməyinə öz cəsur qoşunlarımla gələcəyəm. Mən onun tələblərini müharibə ilə, öz oxum və qılıncımla onun istədiyi kimi edəcəyəm!". Müqaviləni təsdiqləmək üçün Andre ilə birlikdə göndərilən cavab səfirliyi 1000 nəfər seçilmiş atlının müşayiəti ilə Dərbəndi yardı və yolundakı hər şeyi məhv edərək Kürə çatdı, sonra İveriya və Kolxidadan yollanaraq Qara dənizə keçdi və imperatorun iqamətgahına gəlib çıxdı. I İraklinin o vaxt harada olduğu məlum deyil idi, amma yəqin ki, o, Konstantinopolda yox, bəlkə də Trabzonda idi [2, s.104; 8, s.22-23; 12, s.184; 16, s.109-110; 23, s.153; 24, s.362-363; 26, s.146-147].

Beləliklə, Qərbi Türk xaqanlığı, eyni zamanda, Tan imperiyası ilə dostluq və buna görə də Şərqi Türk xaqanlığı ilə düşmən münasibətini davam etdirməklə, Sasanilərlə Bizans arasındakı müharibəyə cəlb olundu. Bunun nəticəsində iki koalisiya yarandı: bir tərəfdən Tan imperiyası, Qərbi Türk xaqanlığı və Bizans imperiyası, digər tərəfdən isə Şərqi Türk xaqanlığı, Avar xaqanlığı və Sasanilər dövləti [12, s.184].

626-cı ilin sonunda "şimal padşahı", Qərbi Türk xaqanlığının hökmdarı Tun-cabqu xan qardaşı Moxo-şadın (Cabqu-xaqan / Yabğu-xaqan) oğlu Börü-şadın komandanlığı ilə II Xosrovun üzərinə qoşun göndərdi. Türkütlər Albaniya və Atropatenaya daxil olaraq, böyük dağıntılar törədib çoxlu əsir götürdülər. Börü-şad Araz çayında dayandı və oradan türkütlərin I İrakli ilə ittifaqı haqqında məlumatla və ələ keçirilən Bizans bölgələrini tərk edib bütün əsirlərin geri qaytarılması tələbi ilə II Xosrova elçi göndərdi. Şahənşah öz cavabında, ilk növbədə, Ktesifon ilə türkütlər arasında çoxillik dostluq münasibətlərini və onların hökmdarlıq etdiyi xanədanlar arasında olan nikah bağlarını xatırlatdı (məlumdur ki, I Xosrov Ənuşirvan İstəmi xaqanın qızı ilə evlənmişdir). Bundan əlavə, o, nəinki Börü-şadı öz dövlətinin hüdudlarından qovmaqla, həm də xaqanın öz torpaqlarına hücum etməklə hədələdi [5, s.146; 16, s.110-112; 23, s.153-154; 24, s.363].

Börü-şadın Cənubi Qafqaza yürüşündən gətirdiyi əsirlər, mal-qara, qızıl qablar və qiymətli paltarlardan ibarət olan qənimət Cabquxaqanı elə həvəsləndirdi ki, o, özü Sasanilərə qarşı hərəkətə keçmək qərarına gəldi. Bununla əlaqədar Moisey Kaqankatlı yazırdı: "O, bütün ona tabe olan müxtəlif xalq və qəbilələrə, dağlı və aranlılara, dam altında yaşayan şəhərlilərə ulduzlar altında yatan çöllülərə, dənizdə və quruda yaşayanlara, başları qırxılmış və uzun saçlılara əmr etdi ki, onların hamısı onun işarəsiylə başdan ayağa kimi silahlanıb bir yerə toplanmalıdırlar" [2, s.100; 5, s.146; 16, s.104].

Türkütlərin Cənubi Qafqaza ilk yürüşünün məqsədi, yəqin ki, Sasanilərin diqqətini Bizansdan yayındırmaq və I İrakliyə yeni müttəfiqlə birlikdə müharibənin yenidən başlamasına hazırlaşmağa şərait yaratmaq idi. Bu vəzifə, sonrakı hadisələr göstərdiyi kimi, yerinə yetirildi. I İrakli ordu toplayaraq, düşmənə yenidən zərbə endirməyə artıq hazır idi [5, s.146].

627-ci ildə Tun-cabqu xan müqavilənin şərtlərini yerinə yetirərək Albaniya və Atropatenaya yürüşə başladı. Türkütlərlə birlikdə Sasani dövlətinin şərq sərhədlərini qoruyan erməni dəstələri də öz naxararlarının başçılığı ilə Cənubi Qafqaza hərəkət etdilər. Mənbənin məlumatına görə, onlar iranlılara xəyanət edərək "şimal ölkələrinin şahı olan böyük xaqana", yəni qərbi türkütlərin xaqanı Tun-cabqu xanın tərəfinə keçdilər və onun əmri ilə şimal-qərbə, Cabqu-xaqanın qoşunları ilə birləşmək üçün getdilər. Sonuncu ilə birlikdə ermənilər Dərbənd keçidindən keçərək I İrakliyə köməyə yollandılar. Sasanilər Cənubi Qafqaza gedən yolu əhatə edən Dərbənd istehkamlarının möhkəmliyinə ümid bəslədiklərindən türkütlərə o qədər də əhəmiyyət vermirdilər. Dərbənd divarı iri yonulmuş daşlardan hörülərək hündürlüyü 18-20 m çatırdı. Həmçinin o, şimala baxan daha 30 qüllə ilə möhkəmləndirilmişdi. Qapıların üçü dəmirdən idi və divarın şərq ucu dövrələmənin qarşısını almaq üçün Xəzər dənizinə kifayət qədər dərinliyə gedirdi. Sasani nizami birlikləri qərbdə müharibə apardıqlarından albanlar yeni düşməndən təklikdə müdafiə olunmalı oldular. Alban qeyri-nizami qoşunu yalnız yay və oxlarla silahlanmışdılar, döyüşçülərin isə kifayət sayda zirehi və hətta qalxanı yox idi. Onların piyada qalxan daşıyıcıları isə ordunun xüsusi

bir növünü – nizələrlə silahlanmış falanqanı təşkil edirdilər. Albanlarda yalnız sərkərdələr yüksək səviyyədə təchiz edilmişdilər. Gürcülər və ermənilər də eyni qaydada silahlanmışdılar və təbii ki, bu silahlı dəstələr türküt zirehli süvarilərinin hücumunun qarşısını ala bilməzdilər [1, c.2, s.85; 5, s.146-147; 6, c.1, s.74; 12, s.193-194; 16, s.104].

Dərbəndə hücumu Moisey Kaqankatlı son dərəcə rəngarəng təsvir etmişdir: "O, (alban məliklərindən canişin Qayşaq – V.S.) böyük Çola şəhərinin müdafiəçiləri və onun həddindən artıq möhkəm divarlarını qoruyan döyüşçülər ilə nə ola biləcəyinə diqqət etməyə hazırlaşdı. Bu əzəmətli divarları İran şahları tikdirmişdi və bunun üçün onlar çox böyük pullar xərcləyib, öz ölkələrinin əhalisini taqətdən salmışdılar. Bu möhtəşəm tikinti üçün onlar inşaatçıları səfərbərliyə alıb çoxlu müxtəlif tikinti vəsaiti daşıtdırdılar və bunun vasitəsilə onlar Qafqaz dağları ilə Şərq (Xəzər) dənizi arasındakı keçidləri bağladılar. Lakin ümumdünya qeyzi gözlərimizin önünə çatanda dəniz ləpələri divarlardan yüksəyə qalxıb onları yıxdı və bünövrəsinə qədər dağıtdı. Qala divarlarında olan döyüşçülər bu eybəcər, enlisifət, kipriksiz arvadlar kimi uzun və açılmış saçlıların onların üzərinə hücumunu görəndə, onların dəhşətli qorxusu daha da artırdı. Onların sərrast ox atmaları qaladakıları daha da sarsıtdı, çünki bu oxlar kamanlardan sanki sel kimi axırdı. Şəhərə girdikdə onlar qaniçən qurdlar kimi xalqa hücum edir, dar küçə və döngələrdə rəhm etmədən hamını qırırdılar. Bu qırğında onlar istər gözəl və gənc qız olsun, istər oğlan, istər xəstə, istər taqətsiz – hamını öldürür, hamını məhv edirdilər, şikəsti də, qocanı da. Öldürülmüş anaların süd yerinə döşlərindən qan əmən körpələrə belə rəhmləri gəlmirdi. Sanki od tutmuş saman kimi onlar bir qapıdan girib o birisindən çıxardılar və olduğu yerlərdə vəhşi heyvanlar və quşlar bol yem qoyub gediridlər" [2, s.100-101; 5, s.147; 7, s.17-18; 8, s.23; 12, s.194; 16, s.105; 24, s.363].

Alınmaz hesab edilən qalanın süqutu bütün Albaniyada çaxnaşma yaratdı. Sasani valisi İrana qaçdı, paytaxtın zadəganları isə tələsik Ərsaq bölgəsinin əlçatmaz dağlarında gizləndilər. Albanlar əvvəlcə paytaxt Bərdəyə qaçdılar, lakin şəhəri müdafiə etmək ümidi qalmadığından, oranı tərk edərək Ərsaqın dağlarına qaçmağa cəhd etdilər. Şəhərdə qırğınlar törədən, xəzinələri qarət edən türklər şəhəri yerlə-yeksan etdilər. Türkütlər və xəzərlər Kaqankatuyk kəndi yaxınlığında qaçanları yaxalayaraq onların bir hissəsini öldürdülər, digər hissəsini isə əsir götürdülər. Bu, xəzərlərin ikinci böyük istilası idi [5, s.148; 8, s.23; 12, s.194; 16, s.106; 19, s.84; 24, s.363; 25, s.201].

Albaniya ərazisini işğal edən xəzərlər 627-ci ildə Tiflisə doğru hərəkət etdilər. Moisey Kaqankatlı və Feofanın məlumatlarından aydın olur ki, I İrakli yeni müttəfiqləri ilə məhz burada, Tiflisin divarları altında görüşmüşdür. Xəzərlər və bizanslılar şəhəri birgə mühasirəyə aldılar. Lakin onların İveriyanın paytaxtına qarşı birgə hərəkətləri istənilən nəticəni vermədi: şəhər sakinlərinə kömək etmək üçün vaxtında Sasani dəstəsi gəldi və bu, vəziyyəti xilas etdi. Hakimiyyəti dövründə ölkəsi Bizansdan uzaqlaşaraq Sasani dövlətinə qoşulduğu İveriya hökmdarı Stefan (Stepanos) və Sasani sərkərdəsi Şərqaqaq müdafiəyə məharətlə rəhbərlik edirdilər. Nəticədə mühasirə xeyli uzandı və bu səbəbdən də iki aydan sonra qış soyuğunun başlaması ilə əlaqədar müttəfiqlər onu müvəqqəti dayandırmaq qərarına gəldilər. Moisey Kaqankatlıya görə, I İrakli düşmənə qarşı birgə hərəkətləri davam etdirmək üçün xəzər ordusunu gələn il "isti aylar keçib gedəndən sonra", yəni payızda geri qayıdacağını şərt qoyaraq, onu evlərinə buraxdı [1, c.2, s.85; 2, s.102-103; 7, s.18; 8, s.24; 13, s.101; 16, s.107-108; 19, s.84; 21, s.235; 26, s.146-148; 27, s.355; 30, s.30; 31, s.437-438].

Cabqu-xaqan imperatora oğlu Börü-şadın başçılığı ilə qırx minlik bir ordu qoydu, özü isə qalan qoşunları ilə birlikdə torpaqlarına qayıtdı. I İrakli isə Tiflisin mühasirəsini ölkəyə hakim təyin etdiyi Kaxeti erismtavarı Adernaseyə həvalə edərək, 627-ci ilin payızında dincəlmiş qoşunları ilə gözlənilmədən düşmənin üzərinə hücum etdi və Sasani dövlətinin içərisinə doğru irəlilədi [5, s.149; 12, s.195; 21, s.235; 26, s.148; 27, s.355-356; 31, s.438].

Feofanın məlumatına əsasən, hələ imperator ordusu ilə Assuriyaya gəlməmişdən əvvəl bizanslılarla birgə olan köməkçi türküt ordusu onları tərk etdi. Salnaməçinin xəbər verdiyi kimi: "Lakin türklər qışı və farsların davamlı hücumlarını görüb və padşahla bölüşməli olduqla-

rı zəhmətlərə dözməyərək, yavaş-yavaş uzaqlaşmağa başladılar və nəhayət, hamısı onu tərk edərək geri qayıtdılar”. Z. Bünyadovun sözlərinə görə, türkütlər və xəzərlər Albaniyada qalıb, Qafqazın ətəklərində, Qəbələ bölgəsində qışladılar [6, c.1, s.74; 21, s.236; 26, s.150].

Lakin bu, I İraklini dayandırmadı. Yolunda olan hər bir şeyi amansızcasına məhv edən, nə qənimət, nə də əsir yükü altında qalmayan imperiya ordusu düşmən ərazisinin içərisinə doğru davamlı yürüş edirdi. Qərbə, Axaltsıxa kimi çəkilən I İrakli cənuba döndü və ordusu ilə birlikdə Persarmeniyaya qayıtdı. Arpaçay boyu Şirak bölgəsindən keçərək o, Araz çayının dayaz yerinə çatdı və Dəbildən yuxarı, Vərdənəgird kəndi yaxınlığında onu keçdi. Buradan imperator sürətlə Koqovit bölgəsini işğal etdi. Onun bu hərəkətlərindən yanlış nəticə çıxaran Sasani sərkərdəsi Rəhzad isə, bizanslıların qaçaraq geri çəkildiklərini guman edirdi. Sonra I İrakli Urmiya gölünün şərq sahili boyunca Atropatenadakı Xoy və Səlmas bölgəsindən keçərək birbaşa dövlətin paytaxtı Ktesifona doğru hərəkət etdi [10, s.86; 18, s.105; 20, c.3, s.91-92; 26, s.148, 150].

İmperator yalnız Atropatena sərhədlərinə daxil olduqdan sonra Rəhzad onun niyyətini başa düşərək qoşunlarını topladı və sürətlə onun ardınca Naxçıvan şəhərinə yollandı. O, gecə-gündüz o qədər sürətlə gedirdi ki, nəhayət I İrakliyə çatdı [18, s.105; 26, s.148]. Bizans ordusu indiki Acıçayı keçdikdən sonra Dəhharqan bölgəsindən hərəkət edərək Suç-bulağa, oradan isə Zarasp (Zəqr) dağ silsiləsi ilə Assuriyaya yolunu davam etdi. Sasanilər imperatoru təqib etməyə başladılar. Lakin iranlılar qərbə tərəf hərəkət edəndə I İrakli Nineviyaya getdi [20, c.3, s.92; 26, s.148-149, 150].

Nikifor xəbər verir ki, Sasanilər dövlətinə daxil olan imperator şəhərləri və od məbədlərini (τα πυρέΐα) dağıtmağa başladı, nəticədə ona müqavimət göstərə bilməyən şahənşah Şəhrivaraza məktub yazıb onu Bizansdan qayıdıb I İrakliyə qarşı müharibə aparmağa çağırdı. Lakin məktub düşmən tərəfindən tutuldu, bundan sonra imperator Şəhrivaraza aşağıdakı məzmunda saxta məktub göndərdi: “Roma sezarı türklərlə ittifaqa girdi və Adorbadican (Ἀδορβοώιγάνον) adlanan əraziyə çatdı, və ona qarşı bir ordu göndəriləndə, o və türklər məğlub oldular, qalanları isə qaçdılar. Odur ki, Roma torpağını tərk etməyin, romalıları əsarət altına almaq və viran etmək üçün Xalkidonu mühasirəyə alın» [27, s.356].

Zaraspdan keçdikdən sonra I İraklinin marşrutu haqqında müəyyən məlumatları yalnız Feofan verir. Qoşunları ilə Assuriyaya enən imperator Rəvanduzdan cənubda yerləşən Xnaytu bölgəsinə gəldi və ordusuna yeddi gün istirahət verdi. Xnaytunu tərk edərək o, cənuba doğru hərəkət etdi və ətraf əraziləri viran qoydu. Mənbələrin məlumatlarından aydın olur ki, I İraklinin ikinci hücumu, onun birinci yürüşü kimi, amansız qırğın xarakteri daşıyırdı. İmperator qoşunları həm düşmən şəhərlərini, həm kəndlərini yandırır, həm də düşmənləri əsir götürürdülər [20, c.3, s.92; 26, s.150].

I İrakli ilə mübarizənin aparılması sərkərdə Rəhzada tapşırılmışdı. Sonuncu Naxçıvandan I İraklinin ardınca gedərkən, son dərəcə çətin vəziyyətə düşdü, çünki bizanslıların viran qoyduğu bölgələrin ərazisi ilə hərəkət edirdi. Bu vəziyyət onun ordusunu ərzaqla təmin etməyi çox çətinləşdirirdi. Həmçinin otlaq olmadığından böyük miqdarda atlar tələf olurdu. Feofan xəbər verdiyi kimi, 627-ci ilin dekabr ayının 1-də İraklinin qoşunları Böyük Zab çayını keçərək Nineviya yaxınlığında düşərgə saldılar. Rəhzadın qoşunu bizanslıların arxasınca oraya gəldi və onların yerləşdiyi yerə yaxın ərazidə düşərgə saldı. Dekabrın 12-də burada həlledici döyüş baş verdi, və İran ordusu ağır məğlubiyyətə uğradı. Döyüşdə Rəhzadla birgə sərkərdələrinin çoxu həlak oldu, iver şahzadəsi Barsames isə əsir düşdü. Bizanslılar 26 bayraq ələ keçirdilər. Ölülərin talanları davam edənədək, iranlılar gecə saatlarına qədər yerində dayandılar. Bizanslılar çoxlu qızıl silahlar, qızıl kəmərlər və biləklər, qiymətli daşlar ələ keçirdilər. Qənimətə Rəhzadın qızıl qalxanı və qızıl zirehləri də daxil idi. Gecə saatlarında isə Sasani ordusu öz düşərgəsinə çəkildi və oranı tərk edərək, meşəlik təpədə möhkəm mövqe tutdu [16, s.112-113; 18, s.106; 19, s.84; 20, c.3, s.93-94; 21, s.236-237; 26, s.150, 152; 27, s.357; 31, s.439].

Dəstəgirddə olan II Xosrov baş verənlərdən xəbər tutandan sonra 627-ci il dekabrın 23-də öz iqamətgahını tərk edərək Ktesifona qaçdı və ordusunun I İraklinin ordusu ilə açıq döyüşə tab gətirə bilməyəcəyini başa düşərək paytaxtda

möhkəmləndi. Qələbədən sonra I İraklinin ordusu tələsik cənuba doğru irəlilədi və yuxarıda göstərilən tarixdə Kiçik Zab çayını keçdi. Sasani əsilzadəsi İesdemin malikənasında dayanan bizanslılar 25 dekabr 627 ildə burada Milad bayramını qeyd etdilər. Bundan sonra İrakli II Xosrovun Deseridan və Rusa adlı saraylarını dağıtdı [4, s.72; 19, s.84; 20, c.3, s.94-95; 21, s.237-238; 26, s.152; 31, s.439-440].

Nineviya yaxınlığında məğlub olan Sasani ordusu əlavə qüvvələr alaraq Ktesifonu müdafiəsinə tələsdi və I İraklinin arxasından hərəkət edərək Torna çayını keçib onun sol sahilində yerləşdi. İmperator düşmənin körpünün yanında ona müqavimət göstərmək istədiyini guman etsə də, Bizans ordusu həmin yerə yaxınlaşanda iranlılar qaçdı və I İrakli hər hansı bir maneə ilə rastlaşmayaraq körpüdən çayı keçdi [20, c.3, s.95; 26, s.152].

Bundan sonra, I İraklinin qoşunları 628-ci il yanvarın əvvəllərində Beklal sarayını ələ keçirdilər. Burada Sasanilər dövlətində yaşayan ermənilər imperatorun hüzuruna gələrək, şahənşahın Bərəsrof ərazisində hərbi düşərgə salması barədə məlumat verdilər. Tezliklə II Xosrovun Dəstəgird iqamətgahı da alındı, burada zəngin qənimətlə yanaşı, bizanslılar müxtəlif vaxtlarda iranlıların götürdüyü 300 Roma bayrağını da ələ keçirdilər. İmperator özü isə Bəbdərx sarayını götürüb yandırdı. Düşmənin bizanslıları dayandırmağa artıq gücü çatmırdı və buna görə də o, tələsik geri çəkilirdi [20, c.3, s.95-96; 21, s.238-239; 26, s.152].

Bizanslılar Dəstəgirddə dincəlib Xaçın suya salınması bayramını qeyd edərək bu şəhəri dağıtdılar, bundan sonra 628-ci il yanvarın 7-də Ktesifona doğru hərəkət etdilər. Üç gündən sonra Nəhrəvan kanalına yaxınlaşan imperator süvari dəstəsini kəşfiyyata göndərdi və bu dəstə ona körpülərin dağıldığını və çayın dərin, sahillərinin isə sıldırımlı olması səbəbindən buradan keçməyin mümkün olmadığını bildirdi. Ktesifona yaxınlaşan I İraklini isə düşmən ordusu gözləyirdi. Lakin o, arxa cəbhədə qalan Şəhrivarazdan ehtiyat edərək şəhəri mühasirəyə alıb basqın etməyə cürət etmədi. Buna görə də imperator hücumu dayandırmaq və geri çəkilməyə başlamaq məcburiyyətində qaldı [18, s.106; 19, s.84; 20, c.3, s.97; 21, s.239-240; 26, s.152-153; 31, s.440].

Nəhrəvan kanalına yaxın ərazidən yola çıxan Bizans ordusu Dialanın axını ilə yuxarı qalxaraq paytaxtla Qazakadakı atəşpərəstlərin əsas məbədinə gedən yolun yarısında yerləşən Şəhrizur şəhərinə çatdı. I İrakli, Feofanın verdiyi məlumata əsasən, demək olar ki, bütün fevral ayı ərzində burada qaldı. Bu müddət ərzində onun qoşunları ətraf əraziləri xarabalığa çevirdi və viran etdi. 628-ci il fevralın 24-də I İraklinin qoşunları Zarasp-Zaqr dağlarını keçərək Atropatenaya getməyə başladılar. Fasiləsiz yağan qar altında keçidi keçib Bərzu qəsəbəsinə çatan bizanslılar yeddi gün burada dincəldilər. H. Roulinsonun qeyd etdiyi kimi, Bərzə şəhərini Urmiya gölünə axan Cəqətu-çayın baş hissəsində yerləşən Baneh bölgəsindəki indiki Berozeh ilə eyniləşdirmək olar [20, c.3, s.97-98; 21, s.240; 22, s.42; 26, s.152-153].

Elə görünürdü ki, hər şey itirilib və I İraklinin düşmən ərazilərinin dərinliyinə girərək mühasirədən çətinliklə xilas olduğu 624-cü il təkrarlanır. Lakin II Xosrov qorxaqlıq nümayiş etdirdi, nəticədə onun oğullarından biri Kavad Şiroyenin başçılığı ilə sarayda zadəganların suiqəsdi yarandı. Şahənşah həbs edilərək edam edildi, I İrakli isə bu barədə Qazaka istiqamətində geri çəkilərkən məlumat aldı [4, s.72-73; 10, s.86; 16, s.112-116; 17, c.1, s.366; 18, s.107; 27, s.357; 29, s.269; 31, s.441].

628-ci il martın 8-də I İrakli öz qoşunları ilə Qazakaya yürüş etdi və martın 11-də oraya gəlib çataraq ordusuna uzun müddətli istirahət verdi. Atropatenanın paytaxtında olarkən onun yanına şahənşahın rəsmi səfirliyi gəldi və II Xosrov Pərvizin 29 fevral 628 ildə edam edilməsi və Kavad Şiroyenin "padşahların padşahı" elan edilməsi barədə xəbər verib sülh üçün onunla danışıqlara girdi ki, I İrakli də buna gözlənilmədən tez və asanlıqla razılaşdı. Sebeosun sözlərinə görə, o, hətta əsirlərin azad edilməsini və döyüş qənimətlərinin düşmənə qaytarılmasını əmr etdi. Əslində bu, separat sülh idi, çünki türkütlər və xəzərlər müharibəni davam edirdilər [1, c.2, s.85; 14, s.320-321; 16, s.116; 18, s.107-108; 20, c.3, s.99; 21, s.240-242; 26, s.153].

I İraklinin bu qəribə hərəkətini təhlil edərkən onun beş il ərzində düşmənə, əsasən etibarlı arxa cəbhənin olmaması səbəbindən, ölümcül zərbə vura bilməməsinə diqqət yetirmək lazım-

dır. Suriya və Kiçik Asiyanın bir hissəsi düşmən tərəfindən işğal edilmiş, Cənubi Qafqaz xristianlarının II Xosrov Pərvizin tolerant hökumətinə müsbət münasibət bəsləməsinə səbəb isə, onların ya monofizit olmaları, ya da İveriya hökmdarı Stefan kimi siyasi səbəblərdən Sasani dövləti ilə ittifaqa girmələri ilə əlaqədar idi. Yalnız xəzərlərin köməyi I İrakliyə hərəkətlərində sərbəstlik verdi. Cənubi Qafqazda Sasani yönümlülüyünü yatırdan türküt və xəzərlər olmasaydı, Ktesifona qarşı kampaniya çətin ki, uğurlu ola bilərdi [12, s.195-196].

Güman etmək olardı ki, yalnız fövqəladə hallar I İraklini bu cür dəyərli müttəfiqlərindən uzaqlaşmağa və əzəli düşmən artıq məğlub olduğu halda onun tam darmadağın edilməsindən əl çəkməyə məcbur edə bilərdi. Əslində Sasanilərin yeganə həqiqi qüvvəsi – Xalkidonu mühasirəyə alan Şəhrivaraz ordusu 628-ci ilin əvvəlində II Xosrova qarşı üsyan qaldırdı və I İraklinin oğlu Konstantinlə sülh bağlayaraq şahənşaha qarşı döyüşmək üçün öz torpaqlarına qayıtdı. Buna səbəb II Xosrovun itaətsizliyə görə Şəhrivarazı edam etmək əmri idi. Bu məktub bizanslıların əlinə keçdi və onlar onu Şəhrivaraza göndərdilər. Sonuncusu isə əmrə daha 400 zabitinin adını əlavə edərək məktubu oxudu və sonradan onu hakimiyyətə gətirən üsyan qaldırdı. İkinci istedadlı sərkərdə sayılan qərbin padqospanı (ispəhbədin köməkçisi) Şahin də etibarını itirmişdi. II Xosrov onu ordudan geri çağırıb mühakimə etmək istəyirdi: Şahini ancaq şahənşahın ölümü xilas etdi [12, s.196; 20, c.3, s.105-106; 21, s.239-240; 29, s.267-268; 31, s.440-441].

Beləliklə, qəti şəkildə deyə bilərik ki, I İraklinin sülh bağlamaqda tələsməsinə qərb hadisələri deyil, şərqdəki vəziyyət təsir göstərdi. 628-ci ildə Şərqi Türk xaqanlığının hökmdarı Kat İl-Xanın sərkərdəsi Aşina Şeni Cənubi Cunqariyanın açarı olan Qərbi Türk xaqanlığına məxsus Bişbalıq qalasını ələ keçirdi və İrtış sahillərində yaşayan qarluqları Tun-Cabqu xana qarşı ayağa qaldırdı. Bununla əlaqədar türküt və xəzərlərin öz doğma köçlərini müdafiə etmək üçün qayıdacaqlarını güman etmək təbii olardı. Bu səbəbdən I İrakli müttəfiqləri tərəfindən tərk edilməsi və qələbəsinin bəhrələrini itirməsi ehtimalından qorxurdu. Bundan əlavə, o, yəqin ki, zəifləmiş Sasani dövlətinin əvəzinə onun sərhədləri yanında türkütlərin nəhəng qüvvəsinin görünməsini istəmirdi. Ona görə də onun nöqteyi-nəzərindən sülhün bağlanılması üçün əlverişli şərait yaranmışdı. Amma türkütlər əzəli düşmən üzərində qələbəni əldən vermək istəmədilər və buna görə də Sasanilərlə müharibəni təkbaşına davam etdirdilər [12, s.196, 198].

Bundan sonra 628-ci il aprelin 8-də I İrakli Qazakadan Persarmeniyaya yola düşdü [26, s.153]. F. Məmmədovanın yazdığına görə, Tiflisin birinci və ikinci (628-ci ilin qışı) mühasirəsi arasındakı dövrdə I İrakli Albaniyanın Qirdman bölgəsinə – "Varaz-Qriqorun mülkü olan Qardabani"yə çatır, onun əmri ilə Varaz-Qriqor və onun xalqı, eləcə də Lal şəhərindəki "Metsekevank hökmdarı" monofelitliyi qəbul etdilər [24, s.364; 25, s.201]. Gürcü mənbəsi olan "Sumbatın salnamə"sinə görə, I İrakli "Varaz Qriqorun yanına Qardabana gəldi və Xazaşeni adlanan ərazidə düşərgə saldı. İrakli Varaz Qriqoru və bütün xalqını xaç suyuna saldı və bütün kilsələrdən daha parlaq bir kilsə tikməyə başladı" [11, s.45].

I İraklinin bu hərəkətləri iki imperiyanın (Sasanilər və Bizans) münasibətləri, onların siyasi və ideoloji rəqabəti fonunda nəzərdən keçirilməlidir. I İraklinin 623-628-ci illərdəki uğurlu yürüşləri Bizansa büdət şərq əyalətlərini qaytardı. İmperator monofelitliyi yaymaqla imperiyada, eləcə də onlara tabe olan Qafqaz ölkələrində kilsə birliyini bərpa etmək qərarına gəldi. Axı II Xosrov hələ 614-cü ildə monofizitliyi öz nəzarəti altında olan bütün xristianların – İranın, Mərkəzi Qafqazın və fəth etdiyi Bizans şərq vilayətlərinin rəsmi dini elan etmişdi [24, s.364; 25, s.201-202; 30, s.29].

Beləliklə, hələ də Sasani mərzbanlarının hökmranlıq etdiyi Albaniyanın hökmdarı, Qirdman şahzadəsi Mihrani Varaz-Qriqor özünü I İraklinin vassalı elan etdi. O, yeni hökmdarı tanıyıb onun dinini – monofelitliyi qəbul edərək, bütün Albaniyanın tam hakimiyyətli hökmdarı oldu. Lakin beynəlxalq aləmdə baş verən dəyişikliklərə görə Varaz-Qriqor I İraklinin ona bəxş etdiyi hüquq və səlahiyyətləri həyata keçirə bilmədi. Bu zaman II Xosrov öldürüldü və 628-ci ildə I İrakli ilə sülh bağlayan və II Xosrovun ələ keçirdiyi torpaqları geri qaytaran II Kavad taxta çıxdı. Albaniya isə yenə Sasani

dövlətinin təsir dairəsində qaldı [16, s.116; 24, s.364; 25, s.202].

Mənbələrə görə, 3 aprel 628-ci ildə II Kavad I İrakli ilə imperiyalar arasında köhnə sərhədin bərpası və patriarx Zəkəriyyə başda olmaqla bütün əsirlərin geri qaytarılması şərtləri ilə əbədi sülh bağladı. Bu zaman İranda 25 il həbsdə olan Albaniya katolikosu Viro da sərbəst buraxıldı. Beləliklə, Daxili Ermənistan, Mesopotamiya, Suriya və Misir bizanslılara qaytarıldı. 629-cu ildə II Xosrovun nəvəsi III Ərdəşiri (628-629) öldürərək tacı ələ keçirən sərkərdə Horəm, əvvəllər Qüdsdə ələ keçirilən Müqəddəs Xaçı da imperator I İrakliyə qaytardı [17, c.1, s.366; 20, c.3, s.103; 21, s.242; 27, s.358; 31, s.441].

628-ci ilin qışında Cabqu-xaqan yenidən Cənubi Qafqaza daxil oldu və Tiflis divarlarına yaxınlaşdı. Bu dəfə o, tərəddüd etmədi və qısa mühasirədən sonra qoşunlarını hücuma göndərdi. Şəhəri ələ keçirən qaliblər artıq heç bir müqavimət olmadığı halda belə, heç kəsə aman vermədilər. Əsir götürülən iver şahzadəsi Stefan və sərkərdə Şərqaqaq Cabqu-xaqanın qarşısında işgəncələrə məruz qaldılar. Sonuncunun dərisi diri-diri soyulub I İrakliyə Qirdmana göndərildi. Şəhər tamamilə talan edildi. Bundan sonra, I İrakli Tiflisə qayıdıb burada zərdüştiləri və monofizitləri təqib etdi [5, s.150; 12, s.198-199; 16, s.119-120; 30, s.30].

Tiflisi ələ keçirən Cabqu-xaqan geri qayıtdı və oğlu Börü-şada Albaniyanı fəth etməyi əmr etdi. Bu dəfə Cabqu-xaqanın məqsədi ölkəni sadəcə qarət etmək deyil, onu öz dövlətinə birləşdirmək idi. Türk-Bizans müqaviləsinə əsasən İveriya Bizansın, Cənubi Qafqazın şərq hissəsi isə xanın hakimiyyəti altına keçməli idi. Cabqu-xaqan bu müqaviləyə ciddi şəkildə uyğun hərəkət etdi: İveriyanı təmizlədi və Albaniyanı tabe etməyi Börü-şada tapşırdı. «O, oğluna və sərkərdələrinə belə əmr verdi: "Əgər onlar ölkəsinin (Albaniyanın) hakim və əyanları mənim oğlumu qarşılayıb öz torpaqlarını onun tabeliyinə verərlərsə, şəhərləri, qalaları və bazarları mənim qoşunlarıma təslim edərlərsə, siz də imkan verin onlar yaşayıb mənə qulluq etsinlər. Yox, əgər onlar belə etməsələr, onda qoy sizin gözləriniz on beş yaşından yuxarı kişi nəslinə rəhm etməsin, oğlanları isə qadınlarla bərabər mənə və özünüzə qul və kəniz kimi saxlayın"». Bu bəyanat türkütlərin müharibəyə cəlb olunduğu proqramı aydın şəkildə səsləndirir: Konstantinopola təkcə Xorasan vasitəsilə deyil, həm də Xəzər dənizi və Qafqaz vasitəsilə aparıla bilən ipək ticarəti. Albaniyanın Sasani valisi ultimatumu rədd edərək, ölkənin onun naminə hansısa türkə tabe olmasına dəyməz olduğunu əsas gətirdi. Lakin o, tiflisli həmkarının taleyini nəzərə alaraq mülkünü götürüb İrana qaçdı [2, s.113; 5, s.150-151; 6, c.1, s.75; 7, s.18; 8, s.24; 12, s.199-200; 16, s.120-121].

Əsirlikdən qayıdan katolikos Viro mərzban qaçdıqdan sonra Albaniyanın yeganə başçısı qalaraq, "öz ölkəsini fəlakətdən və talandan qurtara bilsin" deyə xəzərlərlə danışıqlara başladı və bu məqsədlə 629-cu ilin mart-aprel aylarında Börü-şadın qərargahına getdi. Şahənşah III Ərdəşirə məktub göndərərək xəzərlərə qarşı kömək istəyən Viro cavab gözlədiyindən Börü-şadla danışıqlarda ləngimələr yaratmağa başladı. Lakin katolikos Ktesifondan nahaq yerə cavab gözləyirdi: saray taxt uğrunda daxili mübarizə ilə məşğul olduğundan Vironun çağırışlarına məhəl qoymadı. Xəzərlər Vironun taktikasını tez başa düşdülər və danışıqları dayandıraraq "püşk atıb qabaqcadan öz aralarında bütün bizim vilayət və kəndlərimizi, çaylarımızı və bulaqlarımızı, düzənliklərimizi və bataqlıqlarımızı bölüşdürüb təyin olunmuş vaxtda bütün ölkəmizi talan etdilər. Ölkəmiz başdan-başa lərzəyə gəldi". Bu dəfə hətta yadellilərin işğalı təhlükəsi ilə üzləşən insanların həmişə gizləndikləri Ərsaq bölgəsinin əlçatmaz dağları belə Albaniya sakinlərini xilas edə bilmədi [2, s.114-115; 6, c.1, s.75; 7, s.18; 8, s.24; 12, s.199-200; 16, s.121-122; 23, s.155].

Əvvəlcədən pul müqabilində ələ alınmış türküt elçiləri tərəfindən xəbərdarlıq edilən katolikos Viro olduğu Kağdərək kəndindən Ərsaq dağlıq ərazisinə qaçaraq Çiləbürt qalasında gizləndi. Lakin türküt elçiləri onu orada tapdılar və yenidən təslim olmağı təklif etdilər. Katolikos ölkənin bütün məmurlarını topladı və onlardan nə edəcəklərinə qərar verməlerini istədi: müqavimət göstərmək, yoxsa tabe olmaq? Hamı yekdilliklə tabe olmağa səs verdi və katolikos düşərgəsi Bərdədən bir qədər aralıda yerləşən Börü-şada xəracı şəxsən apardı. Börü-şad katolikosu mehribanlıqla qəbul etdi və onun xahişi ilə bütün alban məhbusların azad edilməsini əmr

etdi. Bundan sonra, katolikosun tudunları alaçıq və çadırlarda əsirləri axtarmağa başladılar. “Onlar qoşunların düşərgələrinə gəlib çadırları bir-bir yoxlayıb əsirləri axtardılar. Şeylərin altından və mal-qaranın arasında gənc oğlanları tapıb onları bayıra çıxardılar və heç kəs onlara müqavimət göstərə bilmədi”. Bundan əlavə, Viro Börü-şad tərəfindən saxlanılan Persarmeniya və İveriyadan olan məhbusları da azad etdi [2, s.119; 5, s.151, 153; 6, c.1, s.75-76; 7, s.18-19; 12, s.200; 16, s.122-126, 128-129; 23, s.155-156].

Söhbət zamanı Börü-şad Viroya qoşunlarına düşərgələrinə qayıtmağı və basqınları dayandırmağı əmr edəcəyini söylədi. Bununla belə, o, katolikosdan ölkənin bütün qaçan sakinlərinin evlərinə qayıtmasını və öz işləri ilə məşğul olmalarını tələb edərək, bundan sonra xəzər xaqanının “əbədi mülkü”nə çevrilən ölkənin daha da viran edilməsini dayandıracağını vəd etdi. Ölkəni xarabalıqdan xilas etmək üçün Viro Börü-şadın bütün tələblərini qəbul etməyə məcbur oldu və alban zadəganları adından ona dedi: “Biz sənin atanın və sənin bəndələrinik və həmçinin bu ölkənin bütün sakinləri. Gəl bundan sonra öz bəndələrinə rəhm elə və qılıncını bizdən uzaq et ki, biz necə qabaqlar Sasanilərə xidmət edirdiksə indi də sənə edək” [2, s.118; 6, c.1, s.76; 7, s.19; 8, s.25; 16, s.126-127; 23, s.156].

Beləliklə, Albaniya xəzərlər tərəfindən “İran şahı Qubad oğlu Ərdəşirin hakimiyyətinin ikinci ilində yəni hələ istədiyi kimi hökmranlıq etdiyi vaxtda”, yəni 629-cu ilin sentyabrından 630-cu ilin aprelinə qədər olan dövr arasında fəth edildi [2, s.123; 6, c.1, s.76-77; 7, s.19; 16, s.131].

Amma türkütlər üçün təkcə Albaniya kifayət etmirdi. 630-cu ilin aprelində Cabqu-xaqan hazırlaşaraq Persarmeniya və onunla qonşu vilayətlərə hücuma keçdi. Özünə təhlükəsiz yol hazırlamaq üçün o, əvvəlcə Çorpan-tarxanın rəhbərliyi ilə üç minlik bir dəstə göndərdi. Sasani dövlətinin hərbi diktatoru olan Şəhrivaraz türk süvarilərinə başçılıq edən sərkərdəsi Honaxı 10 minlik döyüşçü ilə Çorpan-tarxana qarşı göndərdi. Göycə gölü yaxınlığında baş verən döyüşdə Çorpan-tarxan köçərilərin adi taktikasından istifadə etdi: ordunun bir hissəsi yalançı qaçışla düşməni pusquya saldı və orada tamamilə məhv etdi [2, s.124; 5, s.153-154; 6, c.1, s.77; 8, s.25; 12, s.200-201; 16, s.132-133; 23, s.156-157].

Beləliklə, VIII əsrin birinci üçdə birində Azərbaycanın bütün cənub hissəsi (Atropatena) Sasani imperiyasının tərkibində qalmaqda davam edirdi, Azərbaycanın şimal hissəsi (Albaniya) isə Qafqaz dağlarının ətəklərində məskunlaşan xəzərlərin tez-tez basqınlarına məruz qalırdı. Eyni zamanda Sasani canişini – mərzbanın ölkədə qalması Albaniyanın Ktesifondan vassal asılılığından xəbər verirdi. Bundan başqa, Albaniya xəzərlərə külli miqdarda vergi ödəməli idi [6, c.1, s.79].

Ola bilsin ki, gələcəkdə regiona sahib olmaq uğrunda İranla Bizans arasında növbəti müharibə başlayacaq idi. Lakin artıq bu dövrdə tarixi səhnəyə İrana son qoymağa və Bizansa əhəmiyyətli zərbələr vuraraq, onun şərq ərazilərinin böyük bir hissəsini fəth etməyə müvəffəq olan yeni bir rəqib çıxdı. Bu rəqib, gələcəkdə dünya tarixində böyük rol oynayacaq Ərəb Xilafəti idi.

**İstifadə olunmuş ədəbiyyat**


1. Azərbaycan tarixi: [7 cilddə] / Məsul redaktor akademik N.Vəlixanlı. – Bakı: Elm, – c. 2 (III-XIII əsrin I rübü). – 2007. – 608 s.
2. Moisey Kalankatuklu. Albaniya tarixi / Tərcümə edəni, müqəddimə, qeyd və şərhlərin müəllifi Z. Bünyadov. – Bakı: Avrasiya press, – 2006. – 256 s.
3. Səmədov, V.M. İmperator I İraklinin Qafqaza birinci yürüşü // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası. Sosial elmlər, – 2024. №1, – s.134-143.
4. Анонимная сирийская хроника о времени Сасанидов / Перевод Н.В.Пигулевской. – Москва: Записки института востоковедения, – 1939. Том 7, – с. 56-79.
5. Артамонов, М.И. История хазар / М.Артамонов. – Ленинград: Издательство Государственного Эрмитажа, – 1962, – 524 с.
6. Буниятов, З.М. Избранные сочинения: [в 3 томах] / З.М.Буниятов. – Баку: Элм, – т. 1. Азербайджан в VII-IX веках. – 1999. – 468 с.

7. Буниятов, З.М. О деятельности католикоса Албании Виро (596-630 гг.) // – Москва: Ближний и Средний Восток. Сборник статей, – 1962, – с. 15-21.
8. Буниятов, З.М. О длительности пребывания хазар в Албании в VII-VIII веках // – Баку: Известия АН Азербайджанской ССР. Серия общественных наук, – 1961. №1, – с. 21-34.
9. Васильев, А.А. Лекции по истории Византии: [в 2 томах] / А.А.Васильев. – Петроград: Типография Я.Башмаков и К°, – т. 1. Время до эпохи крестовых походов (до 1081 года). – 1917. – VIII, 356 с.
10. Всеобщая история Степаноса Таронского, Асохика по прозванию, писателя XI столетия / Переведена с армянского и объяснена Н.Эмином. – Москва: Типография Лазаревского Института восточных языков, – 1864. – 337 с.
11. Геюшев, Р.Б. Христианство в Кавказской Албании. (По данным археологических и письменных источников) / Р.Геюшев. – Баку: Элм, – 1984. – 192 с.
12. Гумилев, Л.Н. Древние тюрки / Л.Гумилев. – Москва: Товарищество «Клышников – Комаров и К», – 1993. – 528 с.
13. Джуаншер Джуаншериани. Жизнь Вахтанга Горгасала / Перевод, введение и примечания Г.В.Цулая. – Тбилиси: Мецниереба, – 1986. – 152 с.
14. Дмитриев, В.А. Всадники в сверкающей броне. Военное дело сасанидского Ирана и история римско-персидских войн / В.Дмитриев, – Санкт-Петербург: Петербургское Востоковедение, – 2008. – 368 с.
15. Известия древних греческих и римских писателей о Кавказе. Часть II. Византийские писатели. Лазика и Иберия / С латинского текста Штриттера перевел К.Ган. – Тифлис: Сборник материалов для описания местностей и племен Кавказа, – 1890. Выпуск IX. Отдел I, – с. 1-215.
16. История агван Моисея Каганкатваци, писателя X века / Перевод с армянского К.Патканова. – Санкт-Петербург: Типография Императорской Академии Наук, – 1861. – XV, 376 с.
17. История Византии: [в 3 томах] / Ответственный редактор тома З.В.Удальцова. – Москва: Наука, – т. 1. – 1967. – 524 с.
18. История императора Иракла. Сочинение епископа Себеоса, писателя VII века / Перевод К.Патканьяна. – Санкт-Петербург: Типография Императорской Академии Наук, – 1862. – XI, 216 с.
19. Колесников, А.И. Иран в начале VII века (источники, внутренняя и внешняя политика, вопросы административного деления) // – Ленинград: Палестинский сборник, – 1970. Выпуск 22 (85), – 144 с.
20. Кулаковский, Ю.А. История Византии: [в 3 томах] / Ю.А.Кулаковский. – Санкт-Петербург: Алетейя, – т. 3. – 1996. – 456 с.
21. Летопись византийца Феофана от Диоклетиана до царей Михаила и сына его Феофилакта / В переводе с греческого В.И.Оболенского и Ф.А.Терновского. С предисловием О.М.Бодянского. – Москва: Университетская типография, – 1884. – IV, 370 с.
22. Ломоури, Н.Ю. Иранские походы императора Ираклия и Грузия // – Москва: Византийские очерки, – 1991. – с. 31-44.
23. Мамедов, Т.М. Кавказская Албания в IV-VII вв. / Т.Мамедов. – Баку: Маариф, – 1993. – 216 с.
24. Мамедова, Ф. Кавказская Албания и албаны / Ф.Мамедова. – Баку: Центр Исследований Кавказской Албании, – 2005. – 800 с.
25. Мамедова, Ф. Политическая история и историческая география Кавказской Албании (III в. до н.э. – VIII в. н.э.) / Ф. Мамедова. – Баку: Элм, – 1986. – 284 с.
26. Манандян, Я.А. Маршруты персидских походов императора Ираклия // – Москва: Византийский Временник, – 1950. Том III, – с. 132-153.
27. Никифора, патриарха константинопольского «Краткая история» со времени после царствования Маврикия / Перевод Е.Э.Липщиц. – Москва: Византийский временник, –1950. Том III, – с. 349-387.
28. Оболенский, Д. Византийское Содружество Наций / Д.Оболенский. – Москва: Янус-К, – 1998. – 655 с.

29. Пигулевская, Н.В. Византия и Иран на рубеже VI-VII веков / Н.Пигулевская. – Москва, Ленинград: Издательство Академии Наук СССР, – 1946. – 292 с.
30. Сумбат Давитис-дзе. История и повествование о Багратионах царях наших грузинских / Перевод М.Д.Лордкипанидзе. – Тбилиси: Мецниереба, – 1979. – 69 с.
31. Успенский, Ф.И. История Византийской империи в VI-IX вв. / Ф.Успенский. – Москва: Мысль, – 1999. – 828 с.

## Резюме

**Вугар Самедов**

### Второй поход императора Ираклия I в Кавказ

В 626 году византийский император Ираклий I (610-641), будучи в Понте, начал готовиться ко второму походу против Ирана, для чего и заключил мирный договор с Западно-тюркютским хаганатом. В конце 626 и в 627 году тюрки вторглись в Албанию и Атропатену. Захватив столицу Албании – Барду, они двинулись осаждать Тифлис. Вскоре к тюркам присоединился и сам Ираклий I, который, однако, вскоре их покинул и двинулся вглубь Ирана. Вступив в Атропатену, затем император двинулся в Ниневию, где разбил иранцев. В январе 628 года византийская армия уже подошла к столице Сасанидов – Ктесифону. Однако, опасаясь удара с тыла, император вернулся обратно. А 3 апреля 628 года между Византией и Ираном был заключен «вечный мир», согласно которому иранцы возвращали все захваченные территории и пленников.

***Ключевые слова:*** *Азербайджан, Албания, Византия, Сасаниды, Аварский каганат.*

## Summary

**Vugar Samadov**

### The second campaign of Emperor Heraclius I to the Caucasus

In 626, the Byzantine Emperor Heraclius I (r. 610–641), while in Pontus, began preparing for a second campaign against Iran. To strengthen his position, he concluded a peace treaty with the Western Turkic Khaganate. At the end of 626 and into 627, the Turks invaded Albania (Caucasian Albania) and Atropatene. After capturing the Albanian capital, Barda, they moved to besiege Tiflis. Heraclius soon joined the Turks but later separated from them and advanced deeper into Iran. Upon entering Atropatene, the emperor moved towards Nineveh, where he decisively defeated the Iranians. By January 628, the Byzantine army had approached the Sassanid capital, Ctesiphon. However, fearing an attack from the rear, Heraclius withdrew. On April 3, 628, an "eternal peace" was concluded between Byzantium and Iran, under which the Iranians agreed to return all captured territories and captives.

***Keywords****: Azerbaijan, Albania, Byzantium, Sassanids, Avar Khaganate.*